# Tənqidçinin Azərbaycançılıq həqiqətləri

## yaxud Təyyar Salamoğlunun «Qarlı aşırım»dan keçən yollar» əsəri

***Qarabağ od içində ürəyi, canı dağlar,***
***Araz çağlar sinədə qəlbinin qanı dağlar.***
***Son aşırım üstündə - qərib səsi bayatı;***
***Fərman dərdi çağırar - «Vedinin yanı dağlar».***



*Əli Rza XƏLƏFLİ*

**Muğanda Şirvan - Sabirabad yolunun sol tərəfində Mürsəlli kəndinin Xəlfəli oymağının qəbiristanlığında çox kiçik yaşlı bir uşaq uyuyur. Diqqətlə baxanda onun daş gözləri ilə nə isə dediyini aydınca başa düşmək olar: «Ey insanlar biz sizin səhvlərinizin qurbanıyıq». Düşünürəm ki, uşaq hələ çox körpə olduğundan «səhvlərinizin qurbanıyıq» deyir. Böyüyüb ağlı kəsəndə «bitib-tükənməyən tamahların, quldurluğun, oğurluğun, sonsuz yalanların, bir sözlə, cinayətlərin qurbanıyıq» deyəcək. O uşaq 19 may 2015-ci ildə Azadlıq prospektindəki binada baş verən yanğında həlak olmuş kiçik Ömərdir. O, körpə instinkti ilə, uşaq duyğusu ilə təhlükəni hiss edib, anasını yuxudan oyadıb, bu onun həyat uğrunda ölümə qarşı son döyüşü idi. - Unuda bilmirəm, maraqlı idi ki, uşağın daş gözlərindən oxuduğum mənə deyirdi ki, uşaq kimisə ayırmır: Nə yaxına, nə yada, nə irqə, nə dinə, eləcə «insanlar» deyirdi.**

**...Bu yazımı daşlaşmış taleyi ilə əbədiyyət ömrünü yaşayan körpə Ömərin və eləcə də böyüklərin günahı üzündən həlak olan uşaqların xatirəsinə həsr edirəm.**

***Müəllif.***

*Bəzən biz yazmağa başladığımız andan, bəlkə psixoloji hazırlıq dövründən sonda nə deyəcəyimizi görə bilirik. Bu əsasən ədəbi-tənqidi düşüncə materialına aiddir. Çünki bu material - ədəbi tənqidi düşüncə materialı həyat nə istəyir, yazıçı nə demək istəyir suallarına aydın cavab verməlidir. Cavabın aydınlığı tənqidçinin nəbzinin döyüntüləri həyatın ahəngi ilə - həqiqi-təbii axarda olan həyatın ahəngi ilə yaranan tələbatdan çox asılıdır* **(Əli Rza Xələfli, şair-publisist).**

* * *

*«Koroğlu dönüb bir dəlilərə baxdı. Gördü hamı dövrə vurub oturub. Dəmirçioğlu da oturub lap qulun böyründə. Hay vurub dedi:*

*- Ayə, verin mənim sazımı!*

*Sazı verdilər Koroğluya. Ondan üzünü Dəmirçioğluna tutub dedi: - Ayə, Dəmirçioğlu!*

*Dəmirçioğlu dedi: - Can Koroğlu!*

*- Sən onun qollarını al əlinə, gözlərini də dik gözlərinə. Mən çalıb oxuyacam. Baxarsan, əgər mənim sazım, səsim, sözüm ona əsər elədi, bil ki, mərd adamdı. Halal süd əmib. Yox, əgər əsər eləmədi, bil ki, namərd adamdı.*

*Dəmirçioğlu qulun qollarının qarısını aldı əlinə, gözlərini də dikdi gözlərinə. Koroğlu sazı basdı döşünə...*

*...Söz tamam oldu. Dəmirçioğlu dedi:*

*- Koroğlu, sözlərinin misli-bərabəri tapılmaz. Əvəzsiz sözdü. Amma ki, sən deyən sifətdən bu adamda əsər yoxdu.*

*Koroğlu dedi:*

*- Oğul, mənim ki nə sazım, nə sözüm, nə səsim sənə əsər eləmədi, səndən Koroğlu dəlisi olmaz. Amma mən namərd deyiləm. Ətəyimdən tutan əli kəsmərəm. Qal, ye, iç, dolan! Özün də dəlilərlə gəz, otur, dur, məşq elə! Öyrənərsən, öyrənərsən, öyrənə bilməsən də ki, heç».* **(«Koroğlu». Azərnəşr. 1965, səh.217).**

*"Qəbir daşının üstündə, mənim böyrümdə axıracan yeyilməmiş şirin çörək qalmışdı... Onu süpürüb yerə tulladım. Çünki bu sırf çörək yox, şirin çörək-qoğal idi. Amma deyəsən, çörəyi ovxalayıb torpağa tökmək günah deyildir. Döşəməyə tökmək günahdır"* **(Dostoyevski. «Paxla»dan. M.Baxtinin təqdimində).**

*"Çörəyi ovxalayıb torpağa tökmək olar - bu səpindir, mayalanmadır, döşəməyə tökmək olmaz - bu, dölsüz bətndir"* **(M.Baxtin. Dostoyevski poetikasının problemləri. Bakı-2005, səh.186).**

*«At Abasqulu bəyin başı üstünə keçdi. Ağzını onun sir-sifətində, paltarında gəzdirdi. Başını geri atıb dəli kimi kişnədi. Sonra sahibini bir də imsilədi, elə bil Abasqulu bəyi çağırırdı, oyatmaq istəyirdi. Kərbalayı İsmayıl üzünü çevirib gözlərinin yaşını sildi»* **(Fərman Kərimzadə. «Qarlı aşırım» romanından).**

*"Şəxsi heyssiyyəti, namusu olmayanın Vətən namusu da, millət namusu da ola bilməz; yaxud əksinə, Vətəni, milləti sevməyənin öz şəxsiyyətinə nə hörməti, nə sevgisi"* **(Əli Rza XƏLƏFLİ, Beynəlxalq Rəsul Rza mükafatı laureatı).**

*T.Salamoğlu əsərini mövzunun tədqiqi tarixindən başlamışdır. Bu, lazım idi, çünki sovet hakimiyyətinin tam oturuşmuş vaxtlarında belə bir əsər yazmaq cəsarət tələb etdiyi kimi, belə bir əsəri obyektiv qiymətləndirə bilmək bacarığı da lazım idi. Müəllifin fikrincə, Y.Qarayev, X.Əlimirzəyev, A.Hüseynov, N.Cəfərov kimi analitik təfəkkür və cəsarət sahibləri ilə yanaşı, romanın əhatə etdiyi 30-cu illər düşüncəsindən irəli gedə bilməyən «tənqidçilər» də vardı. Odur ki, müəllif onların da bədii-estetik, sosial-ictimai görüşlərindəki gerilikləri tənqidi şəkildə nəzərdən keçirməli olmuşdur"* **(Qəzənfər Kazımov, filologiya üzrə elmlər doktoru, professor. Əməkdar elm xadimi)**

*"Təbii ki, hamı üçün bir həqiqət gün kimi aydındır (baxmayaraq ki, müasir cəmiyyətdə bir çoxları bunu avamlıq, don kixotluq da hesab edir): ən şərəfli insan vətən yolunda, doğma torpaq yolunda vuruşan, ölümün gözünün içinə dik baxan insandır"* **(Təyyar Salamoğlu. "Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri» kitabından, Bakı - 2012, səh.392).**

### AZƏRBAYCANÇILIQ: VƏTƏN VƏ MİLLƏT BİRLİYİ

Bütün məhrumiyyətlərə baxmayaraq, biz xoşbəxt nəsilik. Bir vaxt istiqlalın qarlı aşırımlarından keçə bilməyib məhv olanların **(edilənlərin)**, zillət və əzablara düçar olanların **(düçar edilənlərin)** istək və arzuları bizim zəmanəmizdə çiçək açdı. Azərbaycançılıq bayraqda, himndə, konstitusiyada və orduda həqiqətə çevrildi. Vətən və millət birliyin dadını gördü, azadlığa qucaq açdı.

Tənqidçi Təyyar Salamoğlunun *"Qarlı aşırım"dan keçən yollar"* əsərini oxuyub qurtaran kimi ilk ağlıma gələn qənaət sözün və ruhun qarşılaşması və bu qarşılaşmanın döyüş yox, bir-birini inkar yox, qovuşması sözün milli ruh üçün **(və əksinə)** güc mənbəyi təəssüratları oldu. Əlbəttə, bu qarşılaşma üçün meydan birinci növbədə tənqidçinin təfəkkürüdür. İkincisi, zamandır ki, bunu da Azərbaycanın müstəqilliyinə qovuşması və istiqlal dövrünün açdığı imkanlar kimi də düşünmək olar. Meydanın sərhədlərini - bu sərhədlərin genişlik imkanlarını daha çox olmasa da yazıçı şəxsiyyəti və tənqidçi təfəkkürü, ayrı-ayrı zamanlara məxsus fenomenlərin varislik əlaqələri, xarakterlərin, təbiətlərin bir-birini tamamlama məqamlarına qədər də təsəvvür etmək olar.

Deməli, meydan ilk baxışdan göründüyü kimi, o qədər də dar deyil. Nə tənqidçinin, nə də tənqidçinin xarakterizə etdiyi yazıçının əsərinə münasibətdə. Həm münasibət, həm də seçim o qədər tam, həyatı ehtiva etdiyindən oxucunun gözləri qarşısında geniş mənəvi imkanlar açmaq gücündədir. Təbii ki, düşüncə daha sürətlidir, yazmaqdan da, danışmaqdan da... Ona görə də... öndə gedən əsgərin əsas zərbəni öz üzərinə götürdüyü kimi yaranan, qarşıya çıxan ilk suallarla da düşüncə qarşılaşır.

Axı Təyyar Salamoğlu *"İsmayıl Şıxlının bədii nəsri", "M.Ə.Sabirin milli intibah idealı"* və indi də *"Qarlı aşırımdan keçən yollar"* tədqiqatları ilə nə demək istəyir? Bu əsərlərin hər üçünü hansı cəhətlər birləşdirir, yaxud bu əsərlər hansı müstəvidə eyni hədəfi vurur? Bəlkə də burada *"vurur"* sözü məqsədi tam ehtiva etmir. Ancaq *"vurur"* ifadəsi fikrin daxili inersiyası **(hərəkət enerjisi)** ilə işlənir. Nə qədər subyektiv olsa da daxili bir inamın təkidi ilə qarşıya çıxacaq çoxlu digər sualların, bir-birini tamamlayacaq cavabların hamısından önə Təyyar Salamoğlunun ötən əsrin 80-ci illər **(və ümumiyyətlə, sovetizmin mənəvi iflas dövrünün)** təbiətini açan cavabını daha dürüst hesab edirəm; ancaq bir şərtlə, göstərilən vaxtın adını 15-20 il qabağa da çəkmək olar: *"80-ci illərdən başlayaraq sosializm eyforiyası zəifləməyə, düşüncələri qapamış "duman" çəkilməyə başlayır. Keçilmiş və keçiləcək "yol"un cizgiləri aydın görünür, "itirilmişlər"in ağrısı başlanır. Kommunizmin bir eyforiya olduğunu başa düşən, maddi nemətlərin selsu kimi axacağına, ictimai şüurun nəhayətsiz bir səviyyəyə qalxacağına inamını itirən insan üzünü keçmişə çevirir, ictimai münasibətlər, mənəviyyat və əxlaq müstəvisində itirdiklərini keçmişdə axtarmağı nicat yolu kimi qavrayır. İnsanın ilkinliyə, soy kökünə meyil və bağlılığı güclənir. Patriarxal həyat və patriarxal insan "gerilik" nişanı olmaqdan çıxıb ilkinlik, saflıq, təmizlik simvoluna çevrilir. Urbanizasiya mühiti insanı sıxdıqca, onun şüurunda patriarxal həyata sevgi hissi güclənir. Patriarxal həyat "milli yaşayış"ın əsl atributu kimi qavranılır. Milli şüurda güclənən bu proses ictimai düşüncədən estetik düşüncəyə keçir. Estetik düşüncə isə öz növbəsində bu prosesin milli şüurda daha artıq yer almasına təkan verir"* **(Təyyar Salamoğlu. İsmayıl Şıxlının bədii nəsri. Bakı-2014, səh.168).** Bu fikirlər hələ Təyyar Salamoğlunun daim hərəkətdə olan təfəkkür sahibi kimi onun nə istədiyi sualını cavablandırmasa da, zənnimcə, cavabın rişələri bu vaxt amili ilə çox bağlıdır. Rüstəm kişi, Cahandar ağa və sonralar Abasqulu bəy, Kərbəlayı İsmayıl kimi obrazların qan qohumluğunun bir tərəfini də az qala dünyanın yarısına hakimlik edən bir dövlətin (və quruluşun) təbiətinə cəmiyyətdə münasibətin dəyişməsində görmək olar. Ümumiyyətlə, Sabir və onun millət obrazı, İsmayıl Şıxlı və onun estetik düşüncəsi **(xarakter yaratma gücündə)**, Fərman Kərimzadə və onun azərbaycanlı idealı tənqidçinin yaradıcılığında sıralanıb və bu sıralanma öz sirrini açdıqca onun nə istədiyinə aparan yolu və məramı da getdikcə daha çox işıqlanır. Əlbəttə, tənqidçinin sadalanan əsərlərinin hər birinə münasibətdə bir aydınlıq oxucunu qapsayır. Və sanki oxucu üçün qaranlıq heç nə yoxdur. Ancaq zənnimcə, bu əsərlərdə də istinad olunduğu bədii materialların özü kimi bir çoxqatlılıq var. Füzuli şeirindəki çoxqatlılıq sayağı. İstər, bədii materialda, istərsə də tənqidçi təfəkkürünün bəhrəsində çoxqatlılıq fikir, düşüncə zənginliyinin göstəricisidir.

Bütün sovet dövrü boyu M.Ə.Sabir **(eləcə də Mirzə Cəlil, Əli Nəzmi, Ə.Qəmküsar...)** birmənalı qavranılan sənətkar olub. Yəni o, millət **(və xalq)** deyəndə ancaq məzlum sinfi nəzərdə tutub. Guya ki, onun düşüncəsində qalanların, yəni ideologiyanın bölgüsündə inkar olunan sinfin millətə dəxli yox imiş. Tənqidçi Təyyar Salamoğlu "İsmayıl Şıxlının bədii nəsri" əsərindən sonrakı ildə nəşr etdirdiyi *"M.Ə.Sabirin milli intibah idealı"* **(2015)** kitabında Sabir və millət münasibətinin üzərindən aldadıcı örtüyü götürür: *"Bizim fikrimizcə, ifşa Sabir üçün məqsəd deyildir. Əslində, Sabir ifşa yox, tənqid edir və bu tənqid heç bir halda hansısa bir sosial təbəqəni, zümrəni təmsil edən tipi sıradan çıxarmaq, məhv etmək məqsədi daşımır. Ümumiyyətlə, Sabirin estetik düşüncəsində ölümə məhkum olan milli-sosial təbəqə yoxdur. Sabir yenicə yaranmaqda olan burjua münasibətləri zəminində meydana çıxan sosial təbəqə və zümrələri milli birlik uğrunda mübarizəyə səsləyir. Sabir bu mübarizədə məqsədə yetməyin çətinliklərini bütün təfərrüatına qədər təsəvvür edir. O, milli birlik uğrunda mübarizənin taktika və strategiyasını dəqiq müəyyənləşdirir. Milli birliyə milli şüuru oyatmaqla nail olmağın mümkünlüyünə Sabirdə heç bir şübhə yoxdur. O, çox yaxşı bilir ki, milli şüuru tərbiyə etmək lazımdır:*

*Ümmətin rəhnüması tərbiyədir,*
*Millətin pişvası tərbiyədir.*
*Tərbiyətlə keçir umuri-cəhan*
*Hər işin ibtidası tərbiyədir.*

*Milli şüuru oyatmaq, vətəndaş birliyinə və düşüncəsinə nail olmaq Sabirin sənət kredosu, sənət konsepsiyası idi".*

Burada professorun *"sənət kredosu"* və *"sənət konsepsiyası"* ifadələri xüsusilə diqqəti çəkir. Yəni ki, Sabir birinci növbədə şair idi. Sovet ideologiyası **(və ideoloqları)** isə onu az qala varlılarla küçə barrikadasında vuruşan kommunara çevirmişdi. Yox, o, kommunar deyildi. *"Millət aşiqi"* **(Səhhət)** idi. Tərbiyəli, maariflənmiş, birliyini hifz edən millət arzusunda idi. Mübarizəsini də bu məqsədə yönəltmişdi. Professor da sovet ideologiyasının təqdim etdiyi **(yaratdığı)** kommunarı - ağına-bozuna baxmadan dağıdanı yox, Vətən və millət üçün can qoyan maarifpərvəri - tərbiyəçini təqdim edir. Professor T.Salamoğlu millətin şairi haqqında sözünə davamında israrlıdır; necə ki, şair əqidəsində israrlı idi:

*(Davamı 9-cu səhifədə)*

# yaxud Təyyar Salamoğlunun «Qarlı aşırım»dan keçən yollar» əsəri

*(Əvvəli 8-ci səhifədə)*

*"Şair öz sənət kredosu uğrunda mübarizə və mücadiləyə "işin ibtidası"ndan - tərbiyədən başlamışdı. Sabirin tərbiyə məktəbində sinif və yaxud təbəqə, zümrə ayrı-seçkiliyi yox idi. Onun əsas tərbiyə üsulu tənqid idi. Böyük sələfi Axundzadə kimi o da "istehza, gülüş və məsxərə yolu ilə" yazılan əsərin tərbiyəvi - idrakı gücünə inanırdı. Milli birliyə, oyanışa, tərəqqiyə mane olan hər cür qüsurlara, özünü dərk edərək vətəndaş kimi formalaşmağa, vətənin və millətin taleyi ilə bağlı düşünməyə mane olan hər cür əxlaqi və mənəvi naqisliyə qarşı kəskin tənqidi münasibət Sabir satirasının həqiqi milli məzmununu yaradır"* **(səh.50-52).**

Bir qədər əvvələ qayıtmaqla zamana münasibət, bu fonda ictimai quruluşun antimilli təbiətinə qarşı özünüqoruma, yeni milli ruhu oyatmaq instinkti ilə yazılan əsərlər, eləcə də, ötən əsrin əvvəllərində millət uğrunda mübarizə və nəhayət, tarixi romanın Fərman Kərimzadə mərhələsi artıq elə bir gücdə təzahür eləmişdi ki, ideoloji basqılar onun qarşısını almaq gücündə deyildi. Demək, tənqidçinin məlum ardıcıllıqla düşüncə hərəkəti yazıçı təxəyyülündə - estetik düşüncədə milli özünüdərkə gedən yolun gizlinlərini açmaq, milli birliyin Azərbaycanın müstəqilliyini qorumaqda birinci və ən əsas amil olduğunu göstərməkdir. Təəssüf ki, tənqidçinin bu əsərləri həm qayəsinə, həm də məlum mövzulara orijinal yanaşma tərzinə görə ilklik missiyasının ağırlıqlarını daşıyaraq arayaərsəyə gəlsə də müasir tənqid təfəkküründə çətin həzm olunur. İlk baxışdan mübahisəli görünə bilən məsələlərə ötəri polemik münasibətlə kifayətlənilir.

Mən bu qeydləri yazmağa başlayanda soyuq şimal küləyi əsirdi. İndi nisbətən mülayim cənub küləyi əsir. Hər ikisində aldadıcı və qıcıqlandırıcı tərəflər var. Vətən və millət məfhumları nə qədər sevgi ilə qovuşursa, bir o qədər də qəzəb və kin daşıyıcısı bədxahlarla qarşılaşır. Nə qədər ki Vətən və millət vəhdətdədir, qüdrətlidir, özünü hifzetmə gücündədir. Vəhdət pozulan kimi tərəflər gücdən düşür. Tələb isə aydın və konkretdir. Milli mənafe uğrunda milli düşüncənin səfərbərliyi... Akademik İsa Həbibbəyli yazır: *"XX əsrin axırlarında Azərbaycan tarixinin ən mühüm siyasi nailiyyəti və tarixi hadisəsi müstəqillikdir. Çətin, mürəkkəb, keşməkeşli ictimai-siyasi hadisələrin sayəsində qazanılmış müstəqilliyin qorunub saxlanması və daha da möhkəmləndirilməsi XXI əsrin astanasında birinci dərəcəli məsul vəzifədir. Həmin müqəddəs vəzifənin həyata keçirilməsi, yerinə yetirilməsi sıravi vətəndaşdan ziyalıya, milli mətbuata, iş adamından siyasi partiyalara, kiçik dövlət məmurundan prezidentə qədər hamının əsas amalı və ümummilli borcudur. Məhz bu məsələdə iqtidar-müxalifət qütbləri ola bilməz. Vətən, millət, dövlət xalqın bütün təbəqələrinə məxsusdur və hamı, hər kəs bu ümummilli dəyərləri qoruyub saxlamağa, zənginləşdirib inkişaf etdirməyə borcludur"* **(İsa Həbibbəyli. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı-2007, səh.646).** Təyyar Salamoğlunu da *"Qarlı aşırım"dan keçən yollar"*a gətirən elə bu səbəbdir: Milli ruhun tərənnümü - milli varlığın daşıyıcısı olan bədii sözün enenrjisini, gücünü azərbaycançılıq həqiqətləri müstəvisində düşüncə tədavülünə gətirməkdir. Tədqiqatçı millətə doğru gedişi Vətənə doğru gediş kimi təqdir edir. Bu yolu vacib və daha üstün bilir. Küləyin hansı tərəfdən əsdiyinin məsələyə dəxli yoxdur.

Müasir ədəbi tənqidimizin həm tarixinin yeni estetik düşüncə ilə yazılmasında, həm də müasir ədəbi təndiqi-düşüncənin yeni təfəkkür müstəvisinə keçirilməsində istedadını və fədakarlığını (sonsuz zəhmətə qatlaşma gücünü də əlavə etmək olar) birləşdirməklə zəngin yaradıcılıq yolu keçməkdə olan Təyyar Salamoğlunun trilogiyasının (mən bu trilogiyanı şərti olaraq *"Vətən və millət birliyi: obrazlar, düşüncələr və döyüşlər"* də adlandırardım; hərçənd ki, ad, əslində, *"Azərbaycançılıq: Vətən və millət birliyi"* mahiyyətini özündə daha çox ehtiva edir) üçüncü hissəsi *"Qarlı aşırım"dan keçən yollar"* **(birinci hissə "M.Ə.Sabirin milli intibah idealı" (2015),** ikinci hissə **"İsmayıl Şıxlının bədii nəsri" (2014)** adlanır. Ədəbi düşüncəmizin indiki çağında, tənqidçi Təyyar Salamoğlu yaradıcılığının yeni mərhələsində qələmə alınıb.

*"Qarlı aşırım"* ifadəsi həm tədqiqatın istinad elədiyi əsərin adı, həm də milli ruhun ilikdondurucu zamanının istiqlala qədərki ayrı-ayrı mərhələlərini özündə əks etdirir. Əsər üç fəsildən **("Qarlı aşırım" romanı və ədəbi tənqid (estetik düşüncənin dinamikliyi, tənqidi düşüncənin statikliyi); "Qarlı aşırım"ın bədii mətn həqiqətləri; Eposdan romana doğru ("Qarlı aşırımda epos ənənələri")** ibarətdir. Müəllif əsərə *"Giriş"* və tədqiqatının qənaətlərini özündə əks etdirən *"Nəticə"* də yazmışdır. Əsərin "Giriş"ində müəllif yazıçı və zaman ziddiyyətlərini konkret və aydın bir düsturla ifadə edir: *"zamanın axarı ilə yox, zamana qarşı hərəkət"*. Təkcə elə bu düsturun açdığı fikir axarında *"İki od arasında" ("Qan içində"), "Qılınc və qələm"*, uzun fasilədən sonra ərsəyə gələn digər əsərlər - *"Məhşər" (Burada "İdeal" əsəri də vurğulana bilər), "Geriyə baxma, qoca", "Dəli Kür" "Qarlı aşırım..."* üfüqlərinəcən düşünmək, fikir və düşüncələrimizi bölüşmək imkanları qazanırıq. Tədqiqatın müəllifi bir vaxt yazıçıların zəif tərəfi, səhvləri kimi yozulan amilləri indi onların güc, enerji mənbəyi, ən başlıcası, yaradılan əsərlərin **(həm də müəlliflərin)** əbədi yaşarılığını da şərtləndirən amillər kimi xarakterizə edən bir tezislə "Giriş"i yekunlaşdırır: *"Dəli Kür", "Qarlı aşırım", "Məhşər" ətrafında tarixi ədəbi prosesdə səngiməyən mübahisələr, bir çox hallarda haqsız irad və tənqidlər öz başlanğıcını müəlliflərin "tarixi öz yazıçı fantaziyası hesabına həzm etmək" istəklərindən qidalanırdısa, başqa tərəfdən, ideoloji baxımdan onların zamanın axarı ilə yox, zamana qarşı hərəkətindən, siyasi rejimin sosial sifarişinə biganəliyindən, tarixi həqiqətlərin öz fəlsəfəsinə varmaq istəklərindən güc alırdı"* **(səh.4).** Əslində, müəllif burada yazıçı ilə hakim ideologiya arasındakı köklü düşüncə fərqini önə çəkir. Sənət siyasi ideologiyaya - söhbət cəmiyyəti əzmək və istədiyi kimi idarə etmək aparatına, antiinsani rejimə xidmət edən, onun siyasi əsası olan ideologiyadan gedir - dayaq durursa, demək, onun mənəvi güc mənbəyi olaraq yaddaşda yaşaması da mümkünsüzdür. Başqa sözlə, ömrü rejimin ömrü qədərdir. Tənqidçinin bir qədər yuxarıda xatırlanan, əsərlərini təhlilə çəkdiyi yazıçıları nəzərdə tutan qeydində «siyasi rejimin sosial sifarişə biganəliyindən güc alırdı» qənaəti, həm də o deməkdir ki, bu sənətkarlar nəinki, siyasi rejimin istəklərinə biganə olurdu, həm də bu rejimə qarşı (bədii yaradıcılıqda) dururdu, onun hərəkət sürətini azaldırdı. Onun (siyasi rejimin) istəklərinə rəvac vermirdi. Dünya kino sənətində öz əksini tapmış bir tarixi hadisəni yada salmaq istərdim. Neron: «Mən Allah olsaydım, bir şimşəklə Romanı yandırardım, sonra təzədən daha gözəl tikərdim». Romanın Nerona yaxın olan yüksək çinli müsahibi: «Bəs Neron Allah deyilsə, kimdir?» Yaltaqlığın ən yüksək zirvəsi sayılacaq bu məqam Neronun daha dəhşətli əməllərinə bəs edəcək təkan deyilmi? «Sosializm inkişaf etdikcə sinfi düşmən güclənir» (Stalin) tezisi səhv idi. Kökündən səhv idi. Əgər həqiqətən inkişaf varsa, bu inkişafa qarşı duran gücün, müqavimətin zəifləməsi deməkdir. Arxasında rejimin dayandığı səhvin doğru olduğunu əsaslandıran güc mərkəzləri əslində, qarşısıalınmaz cinayətlərə yol açırdı. Bütün bunlara sadəcə keçmiş kimi baxmaq olmaz. Pol Pot və İyenq Sari, «Çin mədəni inqilabı», Səddam, «İşid», erməni vandalizmi, bir sözlə, faşizmin və bolşevizmin bətnində yatan şər maqmalarının təkrar-təkrar püskürməyəcəyinə kim təminat verə bilər? Qayıdaq yazıçı və rejim ziddiyyətlərinə. Axı tənqidçini də həmin yazıçılara üz tutmağa vadar edən daxili tələbat onlara inamıdır. Axı o yazıçılar müstəqil və azad düşüncəli insanlar idi. Bəlkə də həmin yazıçıları ölməz xarakterlər yaratmağa sövq edən onların müstəqil təbiətləri ilə şablon **(stereotip)** ideoloji düşüncə arasındakı barışmaz ziddiyyətdir. Hegel yazırdı ki, *"Dünyanı hərəkətə gətirən - əksliklərdir. Əksliyi təsəvvür etmək, qavramaq, düşünmək olmaz demək gülməlidir"* **(Məmmədəli Zeynalov. Fəlsəfə tarixi. Bakı. 2000, səh.367).** Elə buradaca təndiqçinin təfəkkür gücünü şərtləndirən əsas keyfiyyət kimi onun cəmiyyətdəki ziddiyyətli məqamların ədəbiyyatda hansı gücdə əks olunmasına xüsusi diqqət yetirməsidir. Onun *"İki od arasında"* **(Qan içində)** romanı ilə bağlı mülahizələri epizodik xarakter daşısa da tutarlı fikri münasibət kimi unudulmur. Əsər boyu rejimin təbiətini ittiham edən dəlilə çevrilir, Fərman Kərimzadənin yazıçı qüdrətinə güzgü tutur. Azərbaycanı şimaldan və cənubdan təhdid edən, hər iki tərəfdən gələn odun - Rusiya və İran alovlarının arasındakı Qarabağın **(Azərbaycanın)** taleyi əsas amal olaraq Vaqif dövründən Çəmənzəminli dövrünə, İsmayıl Şıxlı mərhələsinə və beləcə F.Kərimzadə zamanına çatır. Zənnimcə, Təyyar Salamoğlu *"Giriş"*dəki sadalamaları, teziz xarakterli mülahizələri ilə ədəbi varisliyi diqqətə çəkir. Oxucunu sözün və ruhun qarşılaşması ilə müşayiət olunan həyəcanlara hazırlayır.

## MİLLİ VARLIĞIN GÜCÜ, İNADI...

Təyyar Salamoğlunun *"Qarlı aşırım"-dan keçən yollar"* əsərinin birinci fəsli - *"Qarlı aşırım" romanı və ədəbi tənqid"* **(estetik düşüncənin dinamikliyi və tənqidi düşüncənin statikliyi,)** adından da göründüyü kimi, müasir ədəbi-tənqidi düşüncənin az qala bir qərinəlik yükünü öz çiyinlərinə alır. Bu ağırlıq altında dizi titrəmədən həm vaxt, həm də məzmun baxımından epoxal - bütöv bir mərhələnin mahiyyətini özündə ehtiva edən düşüncə yükünü ədəbi-fəlsəfi qənaətləri həzm edə bilmək imkanında olan müasir oxucunun hüzuruna gətirir. Bütün mübahisələri, aydın və dumanlı tərəfləri, haqlı və haqsız təkid, təsdiq, iradları ilə.

*"Qarlı aşırım"* yaşamaq uğrunda mübarizə romanıdır. Əlbəttə, ancaq necə mübarizə?.. Yazıçı sözün bədii çalarının gücünə bu mübarizənin motivini verir. Tənqidçi isə ayrı-ayrı obrazların əsərdə yaşam üçün əl atılan vasitənin məqbul və qeyri-məqbul tərəflərindən çox məcburiyyət qarşısında vasitə seçiminin mahiyyətinə işıq salır. Bu barədə bir qədər sonra...

Axı qeyd etdik ki, müəllif roman haqqında ədəbi-tənqidi düşüncənin sanki icmalını **(bir qərinəlik ədəbi yük)** verir: *"Qarlı aşırım"*ın ədəbi hadisə kimi meydana çıxması tənqid və ədəbiyyatşünaslıqda heç bir mübahisə doğurmur. F.Kərimzadənin tarixə müəllif baxışının orijinallığı roman haqqındakı ciddi tənqid və ədəbiyyatşünaslıq yazılarında xüsusi qeyd olunur. Roman haqqında İ.Şıxlı, A.Əfəndiyev, Y.Qarayev, A.Hüseynov, Y.Axundlu, X.Əlimirzəyev, Q.Kazımov, N.Cəfərov, N.Cabbarov və b. mülahizələr söyləmiş, əsəri ideya-estetik cəhətdən dəyərləndirməyə çalışmışlar. Y.Qarayev *"Qarlı aşırım"*ı *"tarixi mövzunun yeni imkanlarını üzə çıxaran"* əsər kimi dəyərləndirmişdir. Professor N.Cəfərov F.Kərimzadənin yaradıcılıq yoluna qısa ekskursunda bu əsəri nəzərdə tutaraq



yazırdı: *"F.Kərimzadəyə qədər Azərbaycan kəndində "sosializm quruculuğu"nun - "kolxoz oyunu"nun ədəbi-tarixi özülü bu miqyasda, bu keyfiyyətdə heç zaman göstərməmişdi. Və hələ neçə illər də göstərməyəcəkdi"* **(səh.5).** Bu qeydləri burada belə yetərli bir əhatədə verməmək də olardı. Ancaq bu yazının nə vaxtsa müstəqil - tədqiqatçının əsərindən ayrıca nəşr oluna biləcəyini düşünəndə razılaşmalı olursan ki, oxucuda bitkin təsəvvür yaratmağa borclusan. Bundan sonra müəllif əsasən mübahisəli məqamlara diqqəti yönəldir. Tədqiqatçı icmalda təndiqçi Xalid Əlimirzəyevin qənaətinə sayğılı münasibət göstərir: *"Yaxşı haldır ki, gənc nasir (F.Kərimzadə - Ə.X.) görkəmli sənətkarlarımızın əsərlərində dəfələrlə öz bədii əksini tapmış bir dövrə yenidən müraciət edərkən sələflərinin təsiri altına düşməmiş, qələmə aldığı hadisələrə tamamilə yeni, orijinal mövqedən yanaşmışdır"* **(səh.5-6.).** Və tədqiqatçı əlavə edir ki, tənqidçinin təqdirləri bu gün də öz dəyərindədir. Ancaq elə bunun arxasınca A.Hüseynzadə **("Azərbaycan kommunisti" jurnalı, 1973, №11, səh.94)** adlı müəllifin ideologiya nümayəndəsi kimi münasibətini çox doğru olaraq Sovet rejiminin mövqeyi (bu yerdə 30-cu illər repressiyasına rəvac verən ideoloji tənqid yada düşür. Əlbəttə, zaman o zaman deyildi. Yoxsa, edamdan (ən yaxşı halda sürgündən yaxa qurtarmaq olmazdı. İdeoloji varis bunu unutmuşdu) kimi şərh edir. Təyyar Salamoğlu G.Babayeva adlı müəllifin də tədqiqatında yer alan səhvlərə güzəştə getmir: G.Babayevanın *"... "Qarlı aşırım" romanının müasir dövrümüzün tələblərinə cavab verməyən və çatışmayan başlıca qüsuru Azərbaycanda kollektivləşmə uğrunda gedən mübarizənin və bu mürəkkəb tarixi şəraitin doğurduğu çətinliklərin, ictimai-siyasi vəziyyətin lazımınca göstərilməməsidir"* **(səh.7)** fikrinə cavab olaraq ardıcıl və məntiqi əsaslara söykənən hökmlərini verir: *"Bu mülahizənin əsasında duran fikir ondan ibarətdir ki, romanda təsvir predmetinə çevrilən dövr tarixilik baxımından təhrif edilmişdir. Müstəqillik dövrünün araşdırmasında özünə yer almasına baxmayaraq, bu mülahizənin büsbütün 30-40-cı illərin kolxoz romanları haqqında dövrünün tənqidinin ideoloji-sosioloji mövqeyini təkrarladığını qeyd etməliyik. Onu da xüsusi qeyd etməyə dəyər ki, elmi araşdırmalarda bu tip çoxsaylı mülahizələrin yer almasının kökündə, birinci halda tədqiqatçıların bədii mətn həqiqətlərindən çıxış etməmələri, ikinci halda sovet tənqidinin inersial təlqinlərindən qopa bilməmələri, üçüncü halda isə bədii mətnə nüfuz üçün əsas şərt olan elmi-analitik təfəkkürdən məhrumluq dayanır"* **(səh.7-8).** Tədqiqatçı Təyyar Salamoğlu 70-ci illər ədəbi tənqidinin faciəsini göstərərək deyir ki, həmin dövrdə tənqidi düşüncə estetik düşüncədən geri qalırdı.

*(Davamı var)*